Fərdi məlumatların işlənilməsi üzrə razılıq

“Konsultasiya əldə etmək” formasını (bundan sonra “Forma”) dolduraraq, öz fərdi məlumatlarınızı təqdim edərək və “Göndər” düyməsini sıxaraq, Siz həmin Formada təqdim olunan fərdi məlumatların “Samsung Electronics Rus Kompani” MMC (bundan sonra “SERC” MMC) tərəfindən işlənilməsinə və məhsul və ya xidmətlə bağlı sorğunuzun dəqiqləşdirməsi üçün Sizinlə telefon, e-poçt və/və ya SMS vasitəsilə əlaqə saxlanılmasına razılıq verirsiniz.

Fərdi məlumatların işlənilməsinin məqsədləri:

- Sorğunuzun işlənməsi, o cümlədən: konsaltinq, texniki və xidmət dəstəyinin göstərilməsi; əks əlaqə üçün sizinlə birbaşa əlaqə yaratmaq, məhsul və ya xidmətlə əlaqədar sorğunuzu dəqiqləşdirmək (buraya xidmət və ya məhsulla bağlı əlavə məlumatın təqdim edilməsi, sualların cavablandırılması, məhsulun və ya xidmətin satınalması prosesində köməkliyin göstərilməsi və digər məsələlər daxildir), xidmətin keyfiyyətindən məmnunluq səviyyəsi ilə bağlı sorğular və araşdırmalar aparmaq;
- bazarın, məhsul və xidmətlərin qiymətləndirilməsi və təhlili;
- korporativ hesabatların aparılması.

Razılıq, yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün zəruri olan bütün işlənilmə növləri üçün, o cümlədən, toplama, saxlama, sistemləşdirmə, dəqiqləşdirmə (yeniləmə, dəyişdirmə), təhlil, istifadə, bloklama, silinmə və məhvetmə, ötürülmə, o cümlədən mövcud qanunvericilik çərçivəsində transsərhəd ötürülmə, habelə işlənilmə üçüncü tərəflərə, o cümlədən Samsung şirkətlər qrupunun şirkətlərinə, o cümlədən “Samsung Electronics Co., Ltd.” (Koreya Respublikası), “SDS Rus” MMC, habelə yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün zəruri hallarda mövcud qanunvericilik çərçivəsində digər üçüncü tərəflərə (lakin bunlarla məhdudlaşmayaraq) verilir,

Samsung Electronics şirkəti fərdi məlumatları Samsung şirkətinin Məxfilik Siyasətinə uyğun olaraq işlənir.

Razılıq məlumatların göndərildiyi andan işlənilmə məqsədlərinə nail olunana qədər və ya Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq bu razılıq geri götürülənə qədər etibarlıdır.
Siz istənilən vaxt aşağıda qeyd olunmuş ünvana Formada qeyd olunan soyad, ad, telefon nömrəsi və/və ya e-poçt ünvanı qeyd etməklə və müvafiq müraciəti göndərməklə verdiyiniz razılığı istənilən vaxt geri götürə bilərsiniz: “SERC” MMC, 123242, Moskva, Varshavskoe sh., 26, poçt qutusu 4.

Formada qeyd olunan fərdi məlumatlar “SERC” MMC tərəfindən müvafiq informasiya sistemində müəyyən olunmuş saxlanma müddəti başa çatdıqdan və ya Sizin ölümünüzdən sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məhv ediləcək və ya arxivləşdiriləcəkdir.